The final 8th World Championship winners – united team of the England. The Cup is in the hands of the team captain Bobby Moore, 1966





Londonda keçirilən 8-ci Dünya Çempionatının təntənəli bağlanışında kraliça Yelizaveta Tofiq Bəhramovu mükafatlandırır, 1966

The Queen Elizabeth II gives the award to Tofig Bahramov at the closing ceremony of the 8th World Cup Championship in London, 1966



SSRİ çempionatı. "Neftçi"nin oyunçusu
Yuri Stekolnikov hücumda, 1969

USSR Championship. Player of "Neftchi"
Yuri Stekolnikov during the attack, 1969



SSRİ çempionatı. Ruslan Abdullayev "Neftçi"nin heyətində, 1970

USSR Championship. Ruslan Abdulayev playing in "Neftchi", 1970

# 1971-

Bu illərdə futbolçularımızın çoxu Olimpiya və SSRİ Milli komandalarının tərkibində məharətlə oynayıblar. Vitali Şevçenko, Nikolay Smolnikov, Sergey Kramarenko, Valeri Hacıyev, Yuri Romenski, İskəndər Cavadov, Maşallah Əhmədov, Yunis Hüseynov və bir çox istedadlı futbolçularımız yenə də gözəl oyun göstərərək Azərbaycanın futbol tarixinə misilsiz töhfələr veriblər. Bu mərhələnin ən böyük nailiyyətlərindən biri 1988-ci ildə Seulda keçirilən Olimpiya oyunları oldu. Bakının "Neftçi" komandasının futbolçusu İqor Ponomaryov SSRİ-nin Olimpiya yığmasının tərkibində Olimpiya Çempionu adını qazandı. Həmin illərdə Azərbaycan futbolunun bir çox oyunçuları SSRİ-nin gənclər yığmasının tərkibində oynayıb Dünya və Avropa çempionatlarının çempion və mükafatçıları olmuşdular. Bu illər Azərbaycan futboluna Vladimir Mixaylevski, Ruslan Lukin, İqor Ponomaryov, Arif Əsədov, Vladislav Qədirov, Vyaçeslav Lemeş, Tərlan Əhmədov, Vəli Qasımov kimi futbolçular bəxş etdi. Bu nailiyyətlərlə yanaşı Nazim Süleymanov Vladiqafqazın "Alaniya" komandasının tərkibində çıxış edərək Rusiya çempionu adını qazandı. Vəli Qasımov Moskvanın "Dinamo" komandasının heyətində ilk Rusiya çempionatının ən məhsuldar oyunçusu oldu. Daha sonra o, İspaniya çempionatında çıxış etdi. Əlbəttə, futbolun sirlərini öyrədən məşqçilər olmasaydı, görkəmli futbolçularımız bütün bu nailiyyətləri əldə edə bilməzdilər. Azərbaycan futbolu Şirəli Şirəliyev, Ənvər Quliyev, Siyavuş İbrahimov, Yevgeni Jarikov, Elşən Piriyev, Konstantin Abramenko, Baba Mustafayev, Eduard Cəbrayılov, Ələkbər Çəfərov və digər görkəmli məşqçiləri ilə fəxr edə bilər. 1961-ci ildə Azərbaycan yığması məşqçi Nazim Hüseynovun rəhbərliyi ilə məktəblilər arasında keçirilən Ümumittifaq Spartakiadasında çempion adını qazandı. 1971-ci ildə Bakıda keçirilən Ümumittifaq Futbol Turnirinin final yarışında 5 güclü komandanı udaraq yeniyetmələrdən ibarət Azərbaycan yığma komandası turnirin qalibi oldu.

1974-cü ildə Bakıda Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında geniş müşavirə keçirildi. Həmin müşavirənin nəticəsi olaraq Azərbaycanda idmanın, xüsusilə də futbolun inkişafı haqda çox mühüm qərarlar qəbul edildi. Bu tarixi hadisədən sonra futbol sahəsində infrastrukturun yaradılması üzrə genişmiqyaslı işlər görülməyə başladı: stadionların, idman məktəblərinin inşasına və futbol seksiyalarının yaradılmasına start verildi.

Azərbaycan futbolu çox gözəl hakim nəsli ilə də öyünə bilər. Ölkəmizi təkcə SSRİ-də deyil, beynəlxalq miqyasda da layiqincə təmsil edən gözəl hakim nəsli formalaşıb və Azərbaycan hakimlər məktəbi böyük nüfuz qazanıb. E. Əzimzadə 1980-ci ildə XXII Moskva Olimpiadasında final oyununu, tanınmış hakimimiz Rüstəm Rəhimov isə Moskvada keçirilən Birlik turnirinin final oyununu idarə ediblər. Boris Zayonts, Tofiq Bəhramov, Yuri Qriqoryev, Eldar Əzimzadə, Rüstəm Rəhimov, Teymur Vəliyev kimi hakimlərimizlə fəxr edə bilərik. Onlardan T. Bəhramov, E. Əzimzadə və R. Rəhimov daha çox nailiyyətlər əldə ediblər. Onlar SSRİ çempionatının yüksək liqasında 100-dən artıq oyun idarə etdiklərinə görə dəfələrlə Qızıl medallara layiq görülüblər və SSRİ-nin 10 ən yaxşı hakimi sırasına daxil ediliblər.

# -1991

Many of our best football players played in the Olympic and National USSR teams: Vitaliy Shevchenko, Nikolay Smolnikov, Sergey Kramarenko, Valeriy Hajiyev, Yuriy Romenskiy, Isgandar Javadov, Mashallah Ahmadov, Yunis Huseynov and others demonstarted the beautiful game and contributed significantly to the history of Azerbaijani football. One of the gratest achievements of this period was a game, that took place in 1988 in Seoul. Igor Ponomarev of Baku "Neftchi" team became an Olympic champion in the United Olympic team of the USSR. During these years many Azerbaijani football players, who played for the youth USSR teams, became champions and prize winners of the World and European championships. Azerbaijan was represented in football by great names such as Vladimir Mikhaylevskiy, Ruslan Lukin, Igor Ponomarev, Arif Asadov, Vladislav Kadyrov, Vyacheslav Lemesh, Tarlan Akhmadov, Vali Gasimov and many others. Football players such as Nazim Suleymanov became champions playing with "Alaniya" Vladikavkaz and Vali Gasimov who became the first and the best Azerbaijani football player for Moscow's "Dynamo" team. In 1992 he was declared the top scorer of the Russian championship, as well as later becoming a prize winner at the championship in Spain. There would not be such prominent football players, if it was not not for our coaches, who prepared, trained and developed them.

Azerbaijani football can be proud of such prominent coaching personalities as Shirali Shiraliyev, Envar Guliyev, Siyavush Ibrahimov, Evgeniy Jarikov, Elshan Piriev, Konstantin Abramenko, Baba Mustafyev, Eduard Jabrayilov, Alakbar Jafarov and many others. In 1961 the National team of Azerbaijan became the champions of the All-Union Competiton of Schoolboys under the coaching of Nazim Huseynov. The Azerbaijani United Team of Teenagers became the winners of the Union Football Tournament, and won 5 other tournaments in 1971.

In 1974 an extended counsel under the leadership of the National leader Heydar Aliyev took place in Baku. Very important aspects about the all-round development of Azerbaijani sport, and in particular football, were ratified here.

Immediately after this historical event, wide field work in the creation and development of football infrastructure was started: the construction of new stadiums, sport schools and football sections began. Azerbaijan can be proud of its great referees. In the same year, the remarkable generation of referees, who represented our country not only in USSR, but also overseas gained real respect for the Referees School of Azerbaijan. In 1980, E. Azimzadeh was a referee at the XXII Moscow Olympic Games' final game and Rustam Rustamov was a referee the Union tournament in Moscow. We are proud of such referees as Boris Zayonts, Tofiq Bahramov, Yuriy Grigoryev, Eldar Azimzade, Rustam Rahimov, Teymur Valiyev and others. The most successful were T. Bahramov, E.Azimzade and R. Rahimov. They were referees in more than 100 USSR championship Premier League games, and became the owners of gold medals for their refereeing and repeatedly were included in the USSR's 10 best referees list.



"Neftçi": I sıra: Yuri Stekolnikov, Səməd Qurbanov, Renat Kəmaləddinov, Bəxtiyar Qulamov, Aleksandr Trofimov, Anatoli Banişevski, Rauf Adıgözəlov (komandanın rəisi);
II sıra: Valentiv Xlıstov (məşqçi), Nadir Eynullayev, Tofiq Abbasov, Nikolay Smolnikov, Fizuli Cavadov, Sergey Kramarenko, Aydın İsmayılov (inzibatçı), Aleksandr Mirzoyan;
III sıra: Boris Xetaqurov (həkim), Yuri Romenski, Rafiq Quliyev, Vyaçeslav Lyoqki, Rauf Yumakulov, 1971

"Neftchi". First row: Yuri Stekolnikov, Samad Gurbanov, Renat Kamaladdinov, Bakhtiyar Gulamov, Aleksandr Trofimov, Anatoliy Banishevskiy, Rauf Adigozalov (captain of the team);
second row: Valintin Khlistov (coach), Nadir Eynullayev, Tofig Abbasov, Nikolay Smolnikov, Fizuli Javadov, Sergey Kramarenko, Aydin Ismayilov (technique), Aleksandr Mirzoyan;
third row: Boris Khetagurov (judge), Yuri Romenskiy, Rafig Guliyev, Vyacheslav Lyogkiy, Rauf Yumakulov, 1971

"Neftçi" –"Nistru" (Kişinyov).
SSRİ çempionatının birinci dəstəsi, 1976

"Neftchi" – "Nistru" (Kishinev).
First group of the USSR Championship, 1976



НЕФТЧИ
/БАКЫ/
НИСТРУ
/КИШИНЈОВ/
1 : 0
СМОЛНИКОВ N11 НЕФТЧИ






Ümumittifaq dərəcəli hakim Rüstəm Rəhimov (mərkəzdə). Onun köməkçiləri Gülağa Cabbarov ilə Yevgeni Gerasimenko, 1988

International level's referee Rustam Rustamov (in the center). Assistants Gulagha Jabbarov and Yevgeniy Gerasimenko, 1988

Tofiq Bəhramov SSRİ çempionatının növbəti görüşünü idarə etmək üçün meydana çıxır, 1971

Tofig Bahramov preparing to referee the next match of the USSR Championship, 1971



"Neftçi" futbol komandası öz təlim məşq bazasında, 1976

"Neftchi" football team at their sport base, 1976







Rəşid Özbəyov üzərində komanda üzvlərinin imzası olan topu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevə təqdim edir, 1976

Rashid Ozbeyov presented the ball with the signatures of the team members to the First Secretary of the Central Committee of Azerbaijan Communist Party Heydar Aliyev, 1976



Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev "Neftçi" komandasının güclülər dəstəsinə çıxması münasibətilə Əli Rəhmanovu (komandanın kapitanı), Gülbala Allahverdiyevi (komandanın rəisi), Gennadi Bondarenkonu (baş məşqçi) və Nikolay Smolnikovu təbrik edir, 1976

The First Secretary of the Central Committee of Azerbaijan Communist Party Heydar Aliyev congratulates "Neftchi" team for the new position in the "best teams" list. Heydar Aliyev congratulates Ali Rahmanov (captain of the team), Gulbala Alahverdiyev (chief of the team), Gennadiy Bondarenko and Nikolay Smolnikov, 1976



Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev "Neftçi" futbol klubu tərəfindən ona hədiyyə olunmuş top və vımpeli nəzərdən keçirir, 1976

The First Secretary of the Central Committee of Azerbaijan Communist Party Heydar Aliyev observe the ball and pennant presented to him by "Neftchi" team,1976

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev "Neftçi"nin oyunçuları ilə görüşür, 1976

The First Secretary of the Central Committee of Azerbaijan Communist Party Heydar Aliyev met the players of the "Neftchi" team, 1976








"Neftçi" futbol komandası Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin qəbulunda, 1976

The First Secretary of the Central Committee of Azerbaijan Communist Party Heydar Aliyev meets "Neftchi", 1976



"Neftçi"nin baş məşqçisi Əhməd Ələsgərov, Azərbaycan futbol federasiyasının sədri Kamal Axundov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin qəbulunda, 1981

The First Secretary of the Central Committee of Azerbaijan Communist Party Heydar Aliyev meets coach of "Neftchi" Ahmad Alasgarov and chairman of the Azebaijan football federation Kamal Akhundov, 1981



"Neftçi". (sağdan sola): Anatoli Banişevski, Əbdülqəni Nurməmmədov, Elxan Rəsulov, Asəf Namazov, Asim Xudiyev, Nikolay Smolnikov, Şakir Qəribov, İsgəndər Cavadov, Fizuli Cavadov, Əli Rəhmanov, 1975

"Neftchi". From right: Anatoliy Banishevskiy, Abdulgani Nurmammadov, Elkhan Rasulov, Asaf Namazov, Asim Khudiyev, Nikolay Smolnikov, Shakir Garibov, Isgandar Javadov, Fizuli Javadov, Ali Rahmanov, 1975





"Neftçi" SSRİ çempionatında. Anatoli Banişevski hakimlə söhbət edir,  1977

"Neftchi" at the USSR Championship. Anatoliy Banishevskiy speaking with referee, 1977




"Neftçi". I sıra: Səməd Qurbanov, Rafiq Əlizadə, Arif Orucov, Bəxtiyar Qulamov, Rəşid Özbəyov;
II sıra: Anatoli Banişevski, Elbrus Abbasov, Əli Rəhmanov, Yuri Romenski, Əbdülqəni Nurməmmədov, Nikolay Smolnikov, Asəf Namazov, 1976

"Neftchi". First row: Samad Gurbanov, Rafig Alizadeh, Arif Orujev, Bakhtiyar Gulamov, Rashid Ozbayov;
Second row: Anatoliy Banishevskiy, Elbrus Abbasov, Ali Rahmanov, Yuri Romenskiy, Abdulgani Nurmammadov, Nikolay Smolnikov, Asaf Namazov, 1976




Eldar Əzimzadə Kopenhagendə yerli Danimarka və Portuqaliya futbolçuları arasında Avropa çempionatının seçmə oyununu idarə etmişdir. Ona Anatoli Milçenko (Suxumi) və Mixail Çerdantsev (Alma-Ata) kömək etmişlər, 1977

Eldar Azimzadeh leads the qualifying match between Denmark and Portuguese teams at the Europe Championship in Copenhagen. Anatoliy Milchenko (Sukhumi) and Mikhail Cherdantsev are assisting, 1977




Beynəlxalq dərəcəli hakim, Moskvada keçirilən Yay Olimpiya oyunlarının final matçını idarə etmiş Eldar Əzimzadə. O, SSRİ çempionatının güclülər dəstəsində 146 oyun idarə etmişdir. Eldar Əzimzadə doqquz dəfə dalbadal SSRİ-nin "33 ən güclü hakimi" siyahısına daxil olunmuşdur, 1980

International level referee Eldar Azimzadeh leads the final match at the Summer Olympic Games in Moscow. He refereed 146 games between best teams at the USSR Championships. Eldar Azimzadeh 9 times was included in the "33 best referee" list, 1980





“Neftçi” komandasının oyunçusu Nikolay Smolnikov hücumda, 1978

Player of the “Neftchi” Nikolay Smolnikov during the attack, 1978



"Neftçi". Əbdülqəni Nurməmmədov, Elxan Rəsulov, Anatoli Banişevski, İsgəndər Cavadov, Asəf Namazov, Rafiq Quliyev, Nikolay Smolnikov, Asim Xudiyev, Şakir Qəribov, 1981

"Neftchi". Abdulgani Nurmammadov, Elkhan Rasulov, Anatoliy Banishevskiy, Isgandar Javadov, Asaf Namazov, Rafig Guliyev, Nikolay Smolnikov, Asim Khudiyev, Shakir Garibov, 1981




SSRİ çempionatı. "Neftçi" – "Dinamo" (Moskva). Bəxtiyar Qulamov müdafiədə sayıqdır, 1977

USSR Championship. "Neftchi" – Dinamo (Moscow). Bakhtiyar Gulamov in defence, 1977



Əməkdar idman ustası, 4 dəfə SSRİ çempionu Ələkbər Məmmədov – yeniyetmə futbolçularla
Sport master, 4 times champion of USSR Alakbar Mammadov with teenagers



Azərbaycan Televiziyasının futbol şərhçisi Ceyhun Şərifov "Çovqan" verilişi üçün "Neftçi" komandasının müxtəlif illərdə kapitanı olmuş Ələkbər Məmmədov və İsgəndər Cavadovdan müsahibə alır, 1987

The commentator of the Azerbaijan TV Jeyhun Sharifov interviews the captains of "Neftchi" in different years – Alakbar Mammadov and Isgandar Javadov, 1987





Azərbaycanın veteranlardan ibarət komandası.
I sıra: Rafiq Əlizadə, Asəf Namazov, Rafiq Quliyev, Valeri Hacıyev, Tofiq Abbasov, Anatoli Banişevski;
II sıra: Ağasəlim Mircavadov, Əli Rəhmanov, Əli Əbilzadə, Sergey Kramarenko, Ələkbər Məmmədov,
Kazbek Tuayev, Aleksandr Trofimov, Vladimir Bruxti, Yaşar Babayev, 1986

The team of the Azerbaijan veterans.
First row: Rafig Alizadeh, Asaf Namazov, Rafig Guliyev, Valeh Hajiyev, Tofig Abbasov, Anatoliy Banishevskiy;
Second row: Agasalim Mirjavadov, Ali Rahmanov, Ali Abilzadeh, Sergey Kramarenko, Alakbar Mammadov,
Kazbek Tuayev, Aleksandr Trofimov, Vladimir Brukhti, Yashar Babayev, 1986


ОКОЛ
Koda
SELECT




Bakı hakimləri SSRİ çempionatında.
Rafiq Quliyev, Rüstəm Rəhimov,
Gülağa Cabbarov. 1986

Baku judges: Rafig Guliyev, Rustam Rahimov
and Gulagha Jabbarov at the
USSR Championship. 1986




Mingəçevirin “Avtomobilçi” komandası. Komandanın baş məşqçisi Anatoli Banişevski, ikinci məşqçi Nadir Qasımov, 1982

“Avtomobil” (Mingachevir) team. The head coach Anatoliy Banishevskiy, second coach Nadir Gasimov, 1982



"Neftçi". I sıra: İsgəndər Cavadov, Arzu Mirzəyev, Əsgər Abdullayev, Yunis Hüseynov, Aleksandr Jidkov;
II sıra: Valeri Pançik, İqor Ponomaryov, Yaşar Vahabzadə, Mustafa Belyalov, Maşallah Əhmədov, Novruz Əzimov, 1986

"Neftchi". First row: Isgandar Javadov, Araz Mirzayev, Asgar Abdullayev, Yunis Huseynov, Aleksandr Jidkov;
Second row: Valeriy Panchik, Igor Ponomaryov, Yashar Vahabzadeh, Mustafa Belyalov, Mashallah Ahmadov, Novruz Azimov, 1986

# 1991-

1991-ci ildə Azərbaycan öz müstəqilliyini qazanandan sonra respublikamızda əsaslı dəyişikliklər başladı. Bu dəyişikliklər futbola da öz təsirini göstərdi. 1992-ci ilin martında AFFA - Azərbaycan Futbol Federasiyaları Assosiasiyası təsis edildi və onun ilk prezidenti Fuad Musayev oldu. 2003-cü ilin dekabrın 29-da Ramiz Mirzəyev, 2008-ci ilin martın 14-də keçirilən seçkidə Rövnəq Abdullayev AFFA-nın prezidenti seçilib.

Futbol təşkilatımız 1994-cü ilin mayında UEFA-nın Vyanada keçirilən 22-ci konqresində UEFA-ya, 1994-cü ilin iyununda FİFA-nın Çikaqoda keçirilən 49-cu konqresində FİFA-ya üzv qəbul olundu. Milli yığma komandalarımız Dünya və Avropa çempionatlarının seçmə mərhələlərində iştirak etmişlər.

Milli komandamız ilk oyununu Gürcüstan yığmasına qarşı 1992-ci ildə səfərdə (baş məşqçi Əhməd Ələsgərov) – Gürcaani şəhərində, 1993-cü ildə isə evdə (baş məşqçi Ələkbər Məmmədov) – Gəncə şəhərində keçirib.

Milli komandamız rəsmi oyunlarda evdə ilk qələbəsini İsveçrə (baş məşqçi Kazbek Tuayev) (1:0), səfərdə isə Lixtenşteyn (baş məşqçi Berti Foqts) (2:0) yığması üzərində qazanıb. Bundan əlavə, millimiz Serbiya, Slovakiya, Finlandiya və Türkiyə yığmalarına qalib gəlib.

Son illər Azərbaycan millisinin uğurlu nəticələr qazanmasında Vəli Qasımov, Nazim Süleymanov, Vidadi Rzayev, Yunis Hüseynov, Şahin Diniyev, Aleksandr Jidkov, Dmitri Kramarenko, Vyaçeslav Lıçkin, Emin Ağayev, Tərlan Əhmədov, Qurban Qurbanov, Mahmud Qurbanov, Zaur Tağızadə, Aslan Kərimov, Rəşad Sadıqov, Kamran Ağayev və başqa futbolçuların xüsusi xidmətləri olub.

2008-ci ildən başlayaraq ölkəmizdə mütəmadi olaraq Bakı Beynəlxalq Futzal Turniri təşkil olunur. Futzal üzrə milli komandamız 2010-cu ildə Macarıstanda keçirilən Avropa çempionatında 4-cü yerə çıxıb. Dəfələrlə ölkə çempionu olan “Araz” klubu isə 2010-cu ildə Portuqaliyada təşkil olunan UEFA kubokunda üçüncü yeri tutub.

FİFA İcraiyyə Komitəsinin 19 mart 2010-cu il tarixli qərarı ilə 17 yaşadək qızlardan ibarət yığma komandalar arasında dünya çempionatının 2012-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul olunub. AFFA tərəfindən U-16 UNİCEF qızlar liqası keçirilir.

1994-cü ilin dekabrında Azərbaycan futbolu tarixində ilk dəfə üç hakimimizə - Tahir Süleymanova, Asim Xudiyevə və Xaqani Məmmədova FİFA referesi dərəcəsi verilmişdir.

# -2011

Azərbaycan müstəqilliyini elan edən kimi futbol məmurlarının gördüyü ilk iş I Milli Çempionatı keçirmək oldu. AFFA-nın təşkil etdiyi ilk Azərbaycan çempionatında 26 komanda iki yarımqrupda mübarizəyə başladı. "Neftçi" Azərbaycanın ilk çempionu oldu.

Müstəqillik dövrü Azərbaycan futbolu üçün Avropa kuboklarında iştirak etmək imkanı da yaratdı. Klublarımız qitəmiqyaslı yarışlarda 1994-cu ildə debüt edib. "Turan" UEFA kubokunda Azərbaycanı təmsil edib. İlk xalımızı isə "Neftçi" qazanıb.

1992-2011-ci illərdə respublikamızın futbol federasiyası tərəfindən çoxşaxəli fəaliyyət perspektivlərini müəyyən edən təşəkkül və inkişaf dövrü başladı. AFFA bu istiqamətdə Azərbaycan idmanının və xüsusilə də futbolun inkişafına dair Dövlət Proqramını rəhbər tutaraq əsaslı işlər görməyə başladı. Ən əsaslı inkişaf isə ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtmasından sonra başladı. AFFA Ümummilli liderimizin və Milli Olimpiya komitəsinin rəhbəri olan İlham Əliyevin tövsiyə və göstərişlərini əsas tutaraq futbolda inkişaf işlərini yüksək temp ilə, məqsədyönlü şəkildə aparır və Azərbaycan futbolunu dünya və Avropa standartlarına yaxınlaşdırmağa çalışır. Bu mənada bir məqamı yada salmaq istərdik. Bu, ölkə başçısının Bakının "İnter" komandasının Beynəlxalq "Birlik Kuboku" uğrunda Sankt-Peterburqda triumf çıxışından sonra söylədiyi təbrik nitqidir: "Bu qələbə bütün Azərbaycan xalqını sevindirdi. Bu gözəl ənənəyə çevrilib. Bizim komandamız artıq 3-cü dəfədir ki, "Birlik Kuboku" uğrunda keçirilən turnirlərdə birinci yerə layiq olur. 2005-ci il də komandamız üçün uğurlu başladı. MDB və Baltikyanı ölkələrin çempionları arasında keçirilən "Birlik kuboku"nda Azərbaycanı təmsil edən "Neftçi" ölkəmizin tarixində ilk dəfə olaraq turnirin finalına yüksəldi. 1992-ci ildə Azərbaycanda ölkəmizin millisini müəyyən etmək məqsədi daşıyan çempionat keçirildi və iştirak edən 26 komanda arasında Bakı "Neftçi"si çempion və Super Kubok-un qalibi oldu. 2006-cı ildə "Neftçi", 2008-ci ildə "Xəzər-Lənkaran", indi də "İnter" komandası çox əhəmiyyətli qələbələr qazanıblar. Bu çox böyük qələbədir, bu çox böyük hadisədir. Bu qələbə ilə bir daha hamınızı - futbolçularımızı, məşqçilərimizi, bütün idman mütəxəssislərini təbrik edirəm!"

Ümummilli lider Heydər Əliyev tərəfindən müxtəlif illərdə Ə. Məmmədov, A. Banişevski, K.Tuayev "Şöhrət" ordeni ilə mükafatlandırılıb. Prezident İlham Əliyev tərəfindən İ. Cavadov və A. Mircavadov "Şöhrət" ordenilə təltif olunub. Həmçinin FİFA-nın prezidenti Yozef Blatter və UEFA-nın prezidenti Mişel Platini də "Şöhrət" ordeninə layiq görülüblər. 2004-cü ildə UEFA-nın 50 illiyi münasibətilə bir sıra ən yaxşı futbolçu, məşqçi və hakimlərimiz UEFA tərəfindən UEFA-nın diplomu ilə təltif olunublar.

Mükafatlandırılanlar arasında futbolçular Ələkbər Məmmədov, Kazbek Tuayev, İsgəndər Cavadov, məşqçi Ağasəlim Mircavadov və hakim Rüstəm Rəhimov da var idi.

Beynəlxalq futbol təşkilatlarının maliyyə köməkliyi ilə ölkəmizdə inşa olunan "Şəfa" stadionun rəsmi açılışı 2004-cü il oktyabr ayının 13-də, AFFA-nın inzibati binasının açılışı 2007-ci il oktyabrın 17-də, Futbol Akademiyasının açılışı isə 2009-cu il fevralın 23-də keçirilib.

Hazırda AFFA tərəfindən 3 stadion – Mərdəkan qəsəbəsində (azarkeş tutumu 5 000), Bayıl qəsəbəsində (3 000) və 8-ci kilometr qəsəbəsində (11 000) inşa olunur. Bundan əlavə, AFFA tərəfindən respublikamızın müxtəlif bölgələrində 100-ə yaxın süni örtüklü meydança tikilərək uşaqların ixtiyarına verilib. 2009-cu il fevralın 23-də UEFA və AFFA-nın maliyyə vəsaiti hesabına inşa olunmuş "Futbol akademiyası"nın açılış mərasimi keçirilib. Tədbirdə AFFA prezidenti Rövnəq Abdullayev, FİFA İcraiyyə Komitəsinin üzvü, UEFA-nın vitse-prezidenti Şenes Erzik, FİFA-nın texniki direktoru Jan Mişel Benezet edib. "Futbol akademiyası" ən müasir tələblərə cavab verən şəraitə malikdir. Burada eyni vaxtda 27 nəfərdən ibarət komanda məskunlaşa bilər. Akademiyada 12 yataq otağı, müasir texniki avadanlıqlarla təchiz olunmuş konfrans zalı, yüksək sürətli İnternetə qoşulmağa imkan verən kompüterlərlə təchiz olunmuş kompüter otağı, həkim otağı, massaj otağı, fitnes zalı, üzgüçülük hovuzu, sauna var. Burada təhsil alacaq uşaqların və təlim-məşq toplanışı keçirəcək yığma komandaların üzvlərinin fiziki hazırlığının yüksəldilməsi üçün fitnes zalında ən müasir trenajor alətləri quraşdırılıb.

Respublika Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı" qəbul olunub və Dövlət Proqramının müddəalarına uyğun olaraq ölkəmizdə futbolun kütləviliyinin təmin olunması, istedadlı gənclərin üzə çıxarılması, onlara lazımi şəraitin yaradılması, təbliğatın genişləndirilməsi və uşaq futbolunun dirçəldilməsi məqsədilə AFFA müxtəlif layihələr həyata keçirir. 2007-ci il dekabrın 16-da Bakıda keçirilən "Top festivalı"ndan sonra analoji tədbirlər regionlarda da təşkil edilmişdir.

Son zamanlar ölkəmizdə futbolun kütləviliyinin artırılması istiqamətində bir çox layihələr həyata keçirilir. Bu addımların atılmasında məqsəd təkcə yüksək səviyyəli futbolçuların yetişdirilməsi deyil, eyni zamanda gənc nəslin bu idman növünə marağının daha da artırılması, onların sağlam həyat tərzinə istiqamətləndirilməsi və zərərli vərdişlərdən uzaqlaşdırılmasıdır.
Bu istiqamətdə görülən işlər arasında ən vaciblərindən biri süni

örtüklü meydançaların inşa olunmasıdır. AFFA tərəfindən Bakıda və respublikamızın müxtəlif bölgələrində süni örtüklü meydançalar tikilərək təmənnasız olaraq uşaq, yeniyetmə və gənclərin istifadəsinə verilib. Bu isə, öz növbəsində, küçə və məhəllələrdə uşaqların futbol oynamasına rahat şərait yaradır.

Müxtəlif ərazilərlə yanaşı, süni örtüklü meydançalar məktəblərdə də inşa olunub və həmin məktəblərdə təhsil alan şagirdlər bu meydançalardan yararlanmaq imkanı əldə ediblər.

"Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, AFFA ilə Təhsil Nazirliyi arasında mövcud əməkdaşlıq müqaviləsi çərçivəsində "Məktəblərdə futbol dərsi" layihəsinin həyata keçirilməsinə start verilib.

Azərbaycan Prezidenti İlham Əliyev "Kür" Olimpiya Tədris-İdman Mərkəzinin açılışındakı görüşdə demişdir:

"Komandamız gənc komandadır və çox böyük əzmkarlıq göstərir. Əlbəttə ki, hələ peşəkarlıq üzərində işləmək lazımdır. Ancaq artıq görürük və sevinirik ki, milli komandamız və klublar beynəlxalq yarışlarda ləyaqətli oyun göstərirlər, özlərini çox ləyaqətli aparırlar. Mən əminəm ki, Azərbaycanda idmanın futbol növü də yüksək zirvələrə çatacaqdır. Buna vaxt və səbir lazımdır. Əminəm ki, bir neçə ildən sonra futbolçularımız hər bir oyunda azarkeşləri sevindirəcəklər".

Futbolun Bakıda yaranması tarixindən 100 il keçir. Yarandığı vaxtdan bu günədək şəhərimizin hər yerində futbolu sevib həvəslə oynayırlar.

Bu günlərdə Azərbaycan futbolunun 100 illiyi qeyd edilərək çox təbriklər səslənəcək və ürəkdən gələn sözlər deyiləcək. Bu sadə təbriklər deyil. Bu, Azərbaycan futbolunun inkişafına, onun inamlı addımlarla irəliləməsinə yönəldilən dividentlərdir.

Biz əminik ki, Azərbaycan futbolu bundan sonra da futbolumuzun inkişafına yönəldilmiş gözəl nəticələr əldə edəcək!

In 1991 after the Republic of Azerbaijan achieved independence, essential changes began. These changes also had a huge influence on Azeri football. In March 1992, AFFA was founded and Fuad Musayev became the first president of this new structure. In 1994 AFFA joined UEFA and FIFA. On December 29th 2003, Ramiz Mirzoyev took the post as the president of AFFA and on the 14th March 2008 Rovneg Abdullayev became the president of AFFA.

In 1994 our organisation became a member UEFA at the 22nd Congress of UEFA in Vienna we also joined FIFA at the 49th Congress in Chicago.

Our National team took part in the World and European Championships.

Our first National team played its first game in Georgia – (Gurjaani) in 1992 (chief coach - Ahmad Alasgarov), and in 1993 we held our first game at home – in Gandja – (Alakbar Mammadov).

The first victories of our national united team were at home in the game against Sweden (1:0) (Coach Kazbek Tuayev), and abroad in the game against Liechtenstein (2:0) (Coach Berti Fogts). Our National team also came out as winners against matches with the Serbian Slovakian, Finnish, and Turkish national teams.

Football players such as Vali Qasimov, Nazim Suleymanov, Vidadi Rzayev, Yunis Huseynov, Shahin Diniyev, Aleksandr Jidkov, Dmitri Kramarenko, Vyacheslav Lachkin, Emin Agayev, Tarlan Ahmadov, Gurban Gurbanov, Mahmud Gurbanov, Zaur Tagizade, Aslan Karimov, Rashad Sadigov, Kamran Agayev and others, played a great role in the successes of our united team.

Beginning in 2008, the Baku International Futsal Tournament was held in Baku, and continues today. Our Futsal United National Team was awarded the 4th place at the European Championship in Hungary. Club "Araz", which several times had become the Azerbaijan's Champion, earned themselves 3rd place at the UEFA Cup Games in Portugal.

The Teenagers (17 years old) Girls Football Championship will be held in Azerbaijan, the FIFA Executive committee made this decision on the 19th March 2010.

In December 1994, for the first time in the history of Azerbaijan, three referees – Tahir Suleymanov, Asim Khudiyev and Khagani

Mammadov received FIFA referee status. Right after gaining of independence in Azerbaijan, the first National Championship was held by AFFA. Twenty-six teams took part in the First Azerbaijani Championship, with "Neftchi" becoming the first Champions of Azerbaijan.

The independence period created an opportunity for Azerbaijani football to be represented at the European Cup Games. Our clubs debuted at the international games in 1994. "Turan" represented Azerbaijan at the UEFA Cup. The first goal was kicked by "Neftchi".

1992-2011 could be characterised as a time of formation and improvement in Azerbaijan, which is defining the contents and prospects of the many activities, of the sovereign Football Association of our republic.

The state program on the development of Azerbaijani sport and in particular football became the main manual for action in the development of sport. AFFA, following advice of the National Leader Heydar Aliyev and the head of the National Olympic committee Ilham Aliyev, planned to increase the rates of football construction, moving towards World and European standards.

Ilham Aliyev, the President of Azerbaijan, said the following after the winning game at the international tournament "Commonwealth Cup" in Saint Petersburg:

"This victory made the Azerbaijani people really happy, it is already a great tradition. Our team, for the third time got the place at the championship of the "Commonwealth Cup".

2005 started successfully for our teams, "Neftchi" for the first time played in the final of the "Commonwealth Cup" between the CIS and Baltic countries. In 1992, when we tried to maintain the composition of the National Team, "Neftchi" won the Championship, and became the winner of the Super Cup between twenty-six teams. In 2006 - "Neftchi", in 2008 - "Hazar" Lankaran, and now "Inter" teams have won these representative competitions. This is a very big victory, very big event. I want to congratulate you - the football players, coaches, and all sport specialists with this victory once more".

The National Leader Heydar Aliyev during his years in power and President of the Republic Ilham Aliyev today rendered worthy attention to the development of football and fittingly valued the achievements of our football players.

The President of the Republic Heydar Aliyev presented The Order "Shohrat" to A. Mammadov, A. Banishevskiy, and K. Tuayev in different years. And the current President of the country, Ilham Aliyev also values the achievements of the Azerbaijani football players, and presented The award "Shohrat" to I. Javadov and A. MirJavadov. The President of the country also presented The Order "Shohrat" not only to prominent football players but to the President of FIFA Joseph Blatter and the President UEFA Michel Platini.

In honor of the 50th Anniversary of UEFA in 2004 the best football players, coaches and referees were awarded with diplomas from UEFA. Prominent football players Alakbar Mammadov, Kazbek Tuayev, Isgandar Javadov, coach Agasalim MirJavadov and referee Rustam Rahimov were amongst those awarded.

With the help of the International Football Organisation, the "Shafa" stadium was built and officially opened on October 13th 2004; the office building of AFFA was opened officially on 17th October 2007, and the Football Academy was opened on 23rd February 2009.

Now, AFFA presented to the young football fans three more stadiums – in Mardakan (5 000 seats), Bayil (3 000 seats), and 8th km (11 000 seats). In addition, more than 100 playgrounds with synthetic grass were provided for teenagers to use. On February 23rd 2009 the opening ceremony of the "Football Academy" was held, which was built with the financial support of UEFA and AFFA. The President of AFFA, Rovnag Abdullayev, members of the FIFA Executive Committee, the vice president of UEFA Shines Erzik, the technical director of FIFA Jan Michel Benezet all took part in the opening ceremony. The "Football Academy" was built in a modern and great style. There is a capacity for 27 players to study at the Academy. The Academy has twelve bedrooms and is state of the art boasting a conference hall, high speed internet, computer rooms, coach's rooms, a massage room, fitness hall, swimming pool and sauna. The high technology equipment for training the united teams before competitions is ready and available at the Academy.

The President of the Azerbaijan Republic signed the decree "The Government Program on the development of the Azerbaijani Football" in 2005-2015. According to this program a lot of activities are now implemented in Azerbaijan. Implementing the "Government Program on the development of Azerbaijani football" (signed by the President of our country), AFFA contribute greatly to making football a game for masses, bringing

in new talented names to Azeri football, creating good opportunities for football players and promoting the development of football for children.

After the "Ball Festival" held in Baku on 16th December 2007, similar events were held in other regions of Azerbaijan. Recently, there have been many projects aimed at bringing football to the masses of Azerbaijan. The purpose of these projects is not just to bring football to the masses, but is also designed to get young people interested in football so as to direct them towards a healthy life style and to prevent them from developing bad habits. One of these projects is creating synthetic grass pitches for the young football players. AFFA have created a lot of these synthetic grass playgrounds for children, teenagers and young players in Baku and in the regions of the Republic. This creates opportunities for children and football fans to play football in their yards and suburbs. These football fields (playgrounds) were also created in the schoolyards. In the frame of the "Government Program of the Development of Azerbaijani Football" the AFFA and the Ministry of Education of Azerbaijan agreed on a project providing football lessons (training) in schools.

The President of Azerbaijan, Ilham Aliyev, highly values the development of football in Azerbaijan. At the opening ceremony of the "KUR" Olympic Training-Sport Center the President of Azerbaijan Ilham Aliyev said:

"Our team is young and shows a great willingness to work. Of course, they should work hard in order to become professionals. But we notice and we are glad, that our National team and clubs demonstrate the respectful game during the international competitions. I am sure, that football will develop greatly in Azerbaijan and reach a high level. We just need time and patience for that. I am sure that in several years, every football player will make his fans glad and happy".

People have been playing football in Azerbaijan for the last 100 years, all over the country, in Baku, in cities and in villages.

Today, when we celebrate the 100th year of Azerbaijan football, and listen to all the warm words and wishes, we are also looking forward to new achievements and new results!



Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev, Respublika Prezidenti Heydər Əliyev, Milli Məclisin sədri Murtuz Ələsgərov və Təhsil naziri Misir Mərdanov Tofiq Bəhramov adına Respublika stadionunda yığmanın oyununu izləyir

The vice-president of the State Oil Company of Azerbaijan Republic Ilham Aliyev, The President of the Azerbaijan Republic Heydar Aliyev, Chairman of the Parliament Murtuz Alasgarov, and Minister of the Education of AR Misir Mardanov at the republic stadium named after Tofig Bahramov watching the game of the united team

FİFA-nın prezidenti Yozef Blatter və UEFA-nın prezidenti Mişel Platini rəhbərlik etdikləri qurumların vımpellərini Respublika Prezidenti İlham Əliyevə təqdim edirlər, 17 oktyabr 2007

